# Ulu Öndərin xatirəsinə ehtiramla

***Bu günlərdə Azərbaycanda Atatürk Mərkəzi akademik, millət vəkili Nizami Cəfərovun "Ümummilli Lider: Azərbaycandan Türk dünyasına" kitabını ("Elm və təhsil" nəş., 2023) nəşr etdirmişdir.***




Kitabın müəllifə məxsus "bir neçə söz"ündə deyilir:

Bu ilin may ayının 10-da Azərbaycan xalqının Ümummilli Lideri, türk dünyasının ən görkəmli şəxsiyyətlərindən biri, dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin 100 yaşı tamam olur. Məlumdur ki, Onun tərcümeyi-halı dünya-türk dünyası - Azərbaycan iyerarxiyasından keçərək bütövlükdə XX əsrin ikinci yarısını işıqlandırır. Heydər Əliyevin dünya miqyası öz kökünü böyük elm, mədəniyyət və dövlət xadimləri yetirməyə qadir olduğunu dəfələrlə sübut etmiş Azərbaycandan almışdı. Və ona görə də son dərəcə zəngin həyatının ən yüksək məqamlarından birində dayanarkən qürurla demişdi ki, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!". Əlbəttə, Ulu Öndərin də, rəhbərlik etdiyi Azərbaycan xalqının da fəxr edə biləcəyi ən böyük hadisə Milli Müstəqillik idi ki, XX əsrin sonu, XXI əsrin əvvəllərində Xalq (və Rəhbər) onun uğrunda misilsiz bir mücadiləyə imza atdı. Bugün türk dünyasının (və ümumən dünyanın) üzvi tərkib hissəsi olan, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxaraq qələbələr qazanan Azərbaycan dövləti, ilk növbədə, Heydər Əliyevin əsəridir. Azərbaycan Prezidenti, dünya azərbaycanlılarının lideri İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, biz Heydər Əliyev yolu ilə gedirik!.. Və get-gedə daha çox məlum olur ki, bu yolun alternativi yoxdur.

Mən təxminən 25 ildir ki, Ulu Öndərin tarixi fəaliyyətini, əsasən, millət (və dövlət), eləcə də milli dil, ədəbiyyat və mədəniyyət quruculuğu yönlərindən araşdıraraq öz düşüncələrimi, qənaətlərimi, mülahizələrimi oxucularla, dinləyicilərlə vaxtaşırı olaraq bölüşməyə çalışıram. Hər birinin konkret tarixi olan yazıların bir hissəsini ayrıca kitab halında nəşr etdirmək qərarına gəldim. Və qeyd etmək istərdim ki, bu kitab bir çox Azərbaycan ziyalıları kimi mənim də həyatıma, yaradıcılıq taleyimə olduqca böyük təsir göstərmiş Şəxsiyyətin yüz illiyi günlərində Onun ruhu qarşısında sonsuz ehtiramımın ifadesidir.

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 15 aprel.- S. 9.**